# MƏDƏNİ KÜTLƏVİ TƏDBİRLƏR



**2021-ci ilin aprel ayında** “Təbib” idman klubunun əməkdaşları uzun illər kollektivdə operator vəzifəsində çalışan, hal-hazırda təqaüddə olan Nataliya Vasiliyevna Kərimovanın 70 illik yubileyini qeyd ediblər. Tədbirdə “Təbib” idman klubunun sədri Qələndər Aslanov yubilyarın uzun və qüsursuz iş fəaliyyətindən danışıb. Sonra klubun əməkdaşarı çıxış edərək Nataliya xanıma ən xoş arzular diləyiblər. Tədbirin sonunda yubilyara gül dəstəsi və xüsusi təşəkkürnamə təqdim edilib.

**2021-ci ilin oktyabr ayında** “Təbib” idman klubunun əməkdaşları uzun illər birgə kollektivdə çalışmış, hal-hazırda təqaüddə olan güləş üzrə SSRİ idman ustası, əməkdar məşqçi Adil Dadaşovun 80 illik yubileyini qeyd ediblər. Klubunun sədri Qələndər Aslanov yubilyarın ömür yolu haqqında qısa məlumat verib. İdman klubunun əməkdaşarı professor Zakir Məmmədov, Cəlaləddin Babayev, Sevinc İsayeva, Aybəniz Əliyeva və Xatirə Şıxlı çıxış edərək Adil müəllimlə bağlı xatirələrini bölüşüb, ən xoş arzularını dilə gətiriblər. Tədbirin sonunda xüsusi təşəkkürnaməni qəbul edən Adil Dadaşov ona göstərilən bu diqqətdən məmnunluq hissini bildirərək, doğma kollektivə təşəkkür edib.






**2021-ci il oktyabr ayının 30-da** 44 günlük Vətən müharibəsində ATU-nun məzunları olmuş Şəhidlərimizin "Anım günü" tədbiri keçirilib. Tədris İdman Kompleksinin foyesində 2.5m hündürlüyü, 6m eni olan Şəhid Məzunlarımızın banneri hazırlanmış və guşə düzəldilmişdir. Tədbir bannerin önünə gül dəstələri qoymaq, Şəhidlərimizi hörmət və ehtiramla anmaqla başlamışdır. Tədbir iki hissəli keçirilib. Rəsmi hissədə ATU-nun



Tərbiyə işləri üzrə prorektoru dosent Zülfüqar Musabəyov, HTF-nin dekanı polkovnik Çingiz Əlləzov, Vətən müharibəsi qazisi Namiq Seyfəddinli və digər dəvət olunmuş qonaqlar çıxış edib. Tədbirin bədii hissəsində ATU-nun teatr klubunun ifasında Şəhid hərbi həkimlərimizə həsr olunmuş ssenari əsasında teatr səhnəsi göstərilmişdir. Tədbirin sonunda döyüşlər zamanı ön və arxa cəbhədə fəal iştirak etmiş HTF-nin VI kurs kursantlarından 15 nəfərə "Təbib" idman klubu adından Təşəkkürnamələr təqdim olunmuşdur.



**26 aprel 2022-ci ildə** Tədris İdman Kompleksində "Narkomaniyaya yox deyək" mövzusunda geniş tədbir keçirilib. Tədbir iki hissədən ibarət olub. Tədbirin birinci hissəsində ATU-nun Tərbiyə işləri üzrə prorektoru dosent Zülfüqar Musabəyov, Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) hüquqşünası Gülnaz Ələsgərova, Gənclər və İdman Nazirliyinin seleksiya üzrə baş mütəxəssisi Elvin Zeynallı,



ATU-nun Psixiatriya kafedrasının dosenti Araz Manuçeri Lalei, Bakı şəhəri Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının həkimi, psixiatr Ramil Hüseynzadə çıxış edərək narkomaniyaya qarşı mübarizədə önəmli məqamlardan danışdılar. Mövzu ilə əlaqədar maarifləndirici videoçarx nümayiş etdirildikdən sonra ATU-nun teatr klubunun ifasında "Bir idmançının taleyi" tamaşası təqdim olundu.

**2022-ci ilin may ayında** “Təbib” idman klubunun əməkdaşları uzun illər onlarla bir kollektivdə çalışan, hal-hazırda təqaüddə olan Nelya Vəzirova Zurabovnanın 80 illik yubileyini qeyd ediblər. Yubiley tədbirində “Təbib” idman klubunun sədri Qələndər



Aslanov və klubunun əməkdaşarı çıxış edərək Nelya xanıma ən xoş arzular diləyiblər. Tədbirin sonunda yubilyara gül dəstəsi və xüsusi təşəkkürnamə təqdim edilib.



**2022-ci ilin dekabr ayında** Tədris İdman Kompleksində “Təbib” idman klubunun təşkilatçılığı ilə keçirilən seminar tələbələrin sevimlisi, psixiatr dr. Ramil Hüseynzadə haqqında qısa tanıtımla başlayıb. Seminarda 200-dən çox tələbə iştirak etmiş, 10-dan çox tələbənin psixoloji, ailə münaqişəsi və şəxsi mövzularda sualları cavablandırılmış, bəzi tələbələrin problemləri klinik səviyyədə həll olunması üçün tövsiyyələr verilmişdir. Tədbirin sonunda “Təbib” idman klubu tərəfindən hazırlanan xüsusi hədiyyə dr.Ramil Hüseynzadəyə təqdim olunub.

Azərbaycan xalqının qədim və zəngin milli-mənəvi dəyərlərindən biri olan Novruz bayramı ərəfəsində, “Təbib” Tədris İdman Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Tibb Universitetinin Kampusunda İlaxır çərşənbəyə həsr olunmuş təntənəli tədbir keçirilib.

Tədbirdə tələbələrlə yanaşı mərkəzin müdiri Qələndər Aslanov və məşqçi-müəllim heyəti də iştirak ediblər. Bayram tədbiri xalqımızın qədim ənənələrini özündə əks etdirən çoxsaylı maraqlı elementlərlə yadda qalıb. Tədbirin əvvəlində tələbələr Novruzun rəmzi olan tonqal ətrafında toplaşıblar və “İlaxır çərşənbə”yə xas olan qədim adət-ənənələri



canlandırıblar. Tələbələr çıxış edərək baharın gəlişini tərənnüm edən mahnılar oxuyub, şeirlər deyib, yumurta döyüşdürüb, rəqslər ifa ediblər. Tədbirin aparıcıları İlhamə Namazova və Aytac Şükürlü İlaxır çərşənbənin mənasını, Novruz bayramının tarixini və xalqımız üçün əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, bu bayram insanları birliyə, həmrəyliyə, mərhəmətə və xeyirxahlığa çağırır.

Tədbirdə yerli tələbələrlə yanaşı əcnəbi tələbələrin də iştirakı bunun bariz nümunəsidir.

“Təbib” Tədris İdman Mərkəzində il ərzində bütün əməkdaşların doğum günləri və yubileylərini qeyd etməklə yanaşı, yeni il şənlikləri, 8 mart beynəlxalq qadınlar günü, novruz bayramları və digər mühüm tədbirlər qeyd olunur. Bu tədbirlərlə yanaşı kollektiv qış və yay tətili günlərində ölkəmizin gözəl təbiəti və tarixi abidələri ilə məşhur olan rayonlarımıza qısa müddətli turist səfərləri də təşkil edir.

